Məhərrəmli Zemfira. Şuşanı aldıq, Şuşa azaddır! // Xalq qəzeti. - 2022. - 11 noyabr. - № 245. - S. 17.

Bir tərəfdən, snayperlər aramsız atəş açır, digər tərəfdən minaatan mərmiləri göz açmağa aman vermirdi. Payızın ortaları – oktyabrın son günləri yaşansa da, sıldırım dağların əhatə etdiyi Kəlbəcərdə kəskin soyuqlar başlamışdı. Şaxta iliyə işləyirdi. Leytenant Ə.Nadirli uca səslə: “Buranı vuracaqlar!” – deyib əsgərlərinə istiqaməti dəyişməyi əmr etdi. Döyüşçülər oradan yenicə aralanmışdılar ki, düşmən həmin yerə güllə yağdırmağa başladı. Bizimkilər isə artıq birinci taborun yaxınlığında qərar tutmuşdular.

Erməni silahlılarının postu döyüşçülərimizin hərəkət etdiyi yüksəkliyin alt tərəfində idi. Üç qrupda birləşən əsgərlərimiz düşmən mövqeyinə hücuma keçdi. Birinci qrup sağ, ikinci qrup isə sol istiqamətlə gedirdi. Üçüncü qrupun döyüşçüləri isə düşmənə mərmilər yağdırmaqla silahdaşlarına atəş dəstəyi verir, erməni quldurların diqqətini yayındırırdı. Cəsarəti, hünəri ilə seçilən əsgər Fərid Aslanov döyüşçü dostu Pərvizlə çiyin-çiyinə düşmən üzərinə şığıyırdı. Əsgərlər bu 22 yaşlı, ucaboylu, pəhləvan cüssəli gənci igidliyinə görə “Aslan” deyə çağırırdı. Samuxda doğulmuş, Gəncə Dövlət Regional Kollecinin idman fakültəsini bitirmiş, həqiqi hərbi xidmətdə olmuşdu. Ordudan qayıtdıqdan dörd ay sonra uzunmüddətli hərbi xidmətə qərar vermişdi. İkinci Qarabağ savaşı − Vətən müharibəmiz başlanan gündən barıt qoxulu cəbhələrdə idi.

Kəlbəcərdəki hücum əməliyyatını Fərid belə nəql edir:

– Gəlişimizdən duyuq düşmüşdülər. Murovdağ silsiləsindən olan Ağdağın arxasına keçəndə düşmən snayperlərinin yüksəklikdə durduqlarını, necə deyərlər, marığa yataraq qarşı tərəfi nişan aldıqlarını gördük. Pərviz məndən azca irəlidə, qayanın üstündə idi. Çığıraraq söylədiyini silahların dağ-daşda əks-səda verən şaqqıltısından güclə eşitdim:

– Məni vurdular!

Düşündüm ki, onu təhlükəsiz yerə çəkib, qan itirməsin deyə yaralarını sarıya bilərəm. Pərviz artıq yanımdaydı, güllələrdən parçalanmış dizini çəkib bağlamışdım. Ayağa qalxa bilmirdi.

Pərviz Ələsgərov 2016-cı ildə dördgünlük Aprel döyüşlərinin iştirakçısı olmuş, kürəyindən iki mərmi yarası almışdı. Həmişə nikbin olan çiyindaşım hər dəfə deyirdi ki, “bu rəzillər məni öldürə bilməyəcəklər.” İki körpə oğlu barədə danışanda isə işıq dolu gözlərini bir görsəydiniz...

Pərviz mənə:

− Aslan, məni  tək qoyub getmə, − dedi.

− Pərviz, ya buradan bərabər çıxacağıq, ya da heç birimiz çıxmayacağıq, − dedim. – Səni qayanın altına çəkmək istəyirəm, yoxsa vurarlar.

Tərpənə bilmədiyini söyləyib, əllərini mənə sarı uzatdı:

− Özün kömək elə, − dedi.

Tez silahımı çiynimə atıb, Pərvizi boyun və bel nahiyəsindən qaldıraraq qucağıma aldım. Sən demə, düşmən snayperi bizi izləyirmiş. Başının arxasından vurulan mərmi Pərvizi ölümcül yaraladı. Bu dəhşətli mənzərədən şoka düşsəm də, ayaqüstə donub heykəltək qalsam da, onu qollarımın üstündə saxlamışdım. Özünü hövlnak yetirən döyüşçü yoldaşım Bəhruz üzümü şillələyib məni ayıltmaq istəyirdi. Ucadan deyirdi ki, “bir az geri çəkil, indi səni də vurarlar.”

Düşmənə nifrətlə alışıb-yanan, azca əvvəl erməni quldurlara mərmilər yağdıran, qardaştək xətrini istədiyim Pərviz xırıltılı səslə “Ana, ay ana!” – deyib çapaladı və qollarımın üstündə keçindi. İgid dostum şəhadətə qovuşdu, Vətən naminə, torpaqlarımızın azadlığı uğrunda şəhid oldu...

Fərid də ermənilərin gözündən yayınmadı, iki erməni silahlısı onu qarabaqara izləyirdi. Əvvəlcə addımlarını yeyinlətdi, sonra isə yerə uzanıb qayalıqlar boyunca sürünməyə başladı. Başının üstünü alan təhlükə, düşmənin mənfur nəfəsi lap yaxında idi. Qayalıq ərazinin qurtardığını və dərin bir dərənin başlanğıcını görəndə qəti qərara gəldi. “Yağılara əsir düşməkdənsə, ölümü seçməliyəm” düşüncəsi ilə özünü dərəyə atdı. Dizi qayanın sərt tininə dəydi, üzüstə dərənin dibinə çırpıldı. Bədəninin əzaları sızıldayır, ağrıdan az qala huşunu itirmişdi. Yaxınlaşan düşmən silahlıları öz dillərində xosunlaşaraq dərənin dibinə qurşunlar səpələyirdilər. Sağına-soluna mərmilər düşən Fərid ölümü göz önünə alsa da, qımıldanmırdı. Onun öldüyünü zənn edən ermənilər donquldana-donquldana uzaqlaşdılar.

Ölüm bu dəfə də Fəriddən yan keçmişdi. Saatlar, dəqiqələr ötürdü. Döyüşçülərimiz düşməni güclü atəşə tutmuşdular. Qaş qaralana yaxın dərənin yaxınlığından keçən əsgərlərimiz Fəridi görərkən “Sağsansa, çıx!” işarəsi verib, onu xilas etdilər.

Qeyri-bərabər döyüşdə xeyli itki verən düşmən məğlub edilmiş, strateji mövqelər ələ keçirilmişdi. Amma itkisiz ötüşmək mümkün deyildi, beş şəhid, dörd yaralımız vardı. Daim öndə gedən, əsgərlərini döyüşə ruhlandıran cəsur komandir Ərtoğrul Nadirli, o cümlədən dörd igidimiz şəhadətə qovuşmuşdu.

Fəridgilin taboru bu döyüşdən sonra Daşkəsənə gəlib meşədə yerləşmişdi. Komandanlıqdan əsgərlərə belə bir sorğuyla müraciət etmişdilər: “35 yaşınadək olanlar sırasından kim könüllü surətdə xüsusi təyinatlıların tərkibində vuruşmaq istəyir?” Fərid ilk olaraq irəli çıxmış, onun ardınca 32 gənc döyüşçü də hərbi əməliyyatlara qatılmaq istədiyini bildirmişdi.

Axşam saatlarında “Ural” maşını könüllüləri aparmaq üçün döyüşçülərimizin yerləşdiyi düşərgəyə yaxınlaşdı. Sanki dözümlülərin yarışı  başlanmışdı. Gənc əsgərlərin hər cür çətinliyə, gərginliyə, aclığa, susuzluğa tab gətirməsi yoxlanılır, onlar sınaqdan keçirilirdi.

Fəridin dediklərindən:

– Dözüm imtahanından üzüağ çıxdıq. Bizi həsrətində olduğumuz Şuşaya yönləndirdilər. Öncə Laçın dəhlizinə doğru irəliləyir, dərin sızma əməliyyatlarında iştirak edir, ərazidəki bütün şübhəli nöqtələri hərtərəfli, xırda detallarınadək öyrənirdik. Bu strateji əhəmiyyətli dəhlizə çatana kimi səkkiz gün piyada yol qət etmişdik.

Hər tərəfimiz erməni postları idi, yağılar bu dəhlizədək hər iyirmi metrdən bir səngər qurmuşdular. Qorxmadan, “Allahu əkbər!” deyib onların üzərinə şığıyırdıq. Ermənilər bu sədadan vahiməyə düşüb, çığırışır, hərbi maşınlara doluşub qaçmağa üz qoyurdular.Əsas yolları tutmuşduq ki, yağıların qarşısını kəsək, Şuşaya girmək asanlaşsın.

Şəhərə girəndə artıq dan yeri ağarırdı, hər yer aydın-aşkar görünürdü. Bir qrup Şuşaya kanatla qalxmışdı, digər qrup isə şəhərə Şuşa həbsxanasının yanından daxil olmuşdu. Halbuki, erməni tərəfi bizi Laçın dəhlizi istiqamətindən gözləyirdi. Bir də ayıldılar ki, şəhərin içindəyik. Şuşa səmasında cövlan edən “Bayraktar”lar, PUA-lar da düşmənə göz açmağa aman vermirdi. Onlar vahimə, qorxu-ürkü, təlaş və çaşqınlıq içindəydi. Ermənilər canlarını götürüb, döyüş texnikasını, silahlarını tullayıb güman gətirdikləri Xankəndi istiqamətinə qaçırdılar.

Başının hayına qalan düşmənin dabanına tüpürüb qaçmasına baxdıqca sövq-təbii Xocalı soyqırımını xatırladım. İllər öncə törətdikləri qanlı Xocalı faciəsində günahsız dinc sakinləri doğma yurdundan necə qovub çıxarmışdılarsa, indi özləri də çarəsiz duruma düşmüşdülər. Azərbaycan əsgərinin üstünlüyü ilə hərb salnaməmizə yazılan döyüşlərdə, əlbəyaxa vuruşlarda əzilmək, məhv olmaq durumuna. “Dəmir yumruq” öz sözünü demişdi. Xüsusi təyinatlılar yüksək döyüş hazırlığı, savaş taktikası ilə erməni vandallarının qəniminə, onlar üçün  əsl kabusa çevrilmişdi.

Artıq noyabrın 8-i idi. Şuşada gedən döyüşlər səngimiş, Qarabağın tacı olan bu qala şəhəri şəhidlərimizin canı-qanı, qazilərimizin hünəri ilə düşməndən təmizlənmişdi. Zəfər savaşımız, cəngavər oğullarımızın bizə bəxş etdiyi qalibiyyət ab-havası ürəklərə bir rahatlıq, hüzur gətirmişdi. Fərid də döyüşçü dostlarının arasındaydı. Üzündən-gözündən yorğunluq yağsa da, özünü və cəbhə dostlarını mənən güclü, yenilməz hesab edirdi. Silah yoldaşları kimi, o da evə zəng edib atasına belə demişdi: “Şuşanı aldıq, Şuşa azaddır!” Neçə gündən bəri intizarla gözlənilən bu zəng onun valideynlərinə dağ boyda sevinc bəxş etmişdi.

Müdrik Ali Baş Komandanımız, hünərvər əsgər və zabitlərimiz möhtəşəm Zəfər savaşında gerçək tarix yazmışdılar. Fərid 30 illik həsrəti 44 gündə bitirən rəşadətli Azərbaycan Ordusunun əsgəri olduğu üçün qürurlu idi. Fərid Fariz oğlu Aslanovun “Şuşanın azad olunmasına görə”, “Cəsur döyüşçü” və “Döyüşdə fərqlənməyə görə” medalları ilə təltif olunması bu mübariz Vətən oğlunun layiqli haqqıdır.